# TƏLİM PROSESİNDƏ YENİYETMƏLƏRDƏ MÜSTƏQİLLİYİN İNKİŞAF ETDİRİLMƏSİ

**Ülviyyə İsmayılova,**
*fəlsəfə doktoru hazırlığı üzrə doktorant,*
*Gəncə Dövlət Universiteti*
E-mail: ulviyy.ismayilova@mail.ru

**Rəyçilər:** *ped.ü.elm., dok., prof.* A.N. Abbasov,
*ped.ü.fəls. dok.* L.A. Məmmədli

***Açar sözlər:*** *təlim, təlim prosesi,* ədəbiyyat dərsləri, şifahi ədəbiyyat, yazılı ədəbiyyat, *yeniyetmə, müstəqillik, yeniyetmənin müstəqilliyi*

***Ключевые слова:*** *обучение, процесс обучения, уроки литературы, устная литература, письменная литература, подросток, самостоятельность, самостоятельность подростка*

***Keywords:*** *teaching, teaching process, literature lessons, oral literature, written literature teenager, independence, teenage independence*

Mövcud ədəbiyyatın öyrənilməsindən görünür ki, təlim prosesinin və sinifdənxaric tədbirlərin səmərəli şəkildə təşkili təlim-tərbiyə sisteminin optimallaşdırılmasının və təkmilləşdirilməsinin mühüm şərti kimi özünü göstərir. Qarşılıqlı əlaqə işin məzmununa, istifadə olunan metodlara, şagirdlərə təsir fəndlərinə, qazanılmış biliklərə əsasən bərqərar olur.

Sinifdənxaric tədbirlər zamanı şagirdlərin təlim prosesində qazandığı biliklərdən və onların bacarıqlarından istifadə edilir. Dərsdə öyrənilənlər genişləndirilir, məktəblilərin bilik dairəsi, dünyagörüşü genişləndirilir. Əslində sinifdənxaric tədbirlərdə qazanılan bilik və bacarıqlara da təlim prosesində müraciət olunmalı, onlardan faydalanmaq lazımdır. Lakin müşahidə və söhbətlərdən görünür ki, müəllimlərin bir qismi varisliyi birtərəfli qəbul edir, vaxt azlığı səbəbindən təlim prosesində üzərində geniş dayanmaq mümkün olmayan məsələlərə sinifdənxaric tədbirlərdə (söhbət, mühazirə, görüşlər, disput və müzakirələr, dəyirmi masa və s.) əhatəli şəkildə münasibət bildirməklə öz fəaliyyətlərini məhdudlaşdırırlar.

Əlbəttə, bunu məqbul hesab etmək olmaz.

Təlim prosesi və sinifdənxaric məşğələlərin qarşılıqlı əlaqəsinin didaktik və tərbiyəvi əhəmiyyəti azərbaycanlı alimlərindən Ə.Ə.Ağayevin, N.M. Kazımovun, F.A. Rüstəmovun, S.M. Quliyevin, A.N.Abbasovun, H.Ə. Əlizadənin, N.İ Boldıryevin, A.İ.Dulovun, N.P.Dolqoborodovanın, B.T. Lixaçovun, V.F. Maçixinanın, E.S.Tarçakovun, P.T.Frolov, Z.İ. Vasilyevanın əsərlərində diqqət mərkəzində dayanmışdır.

Mövcud ədəbiyyatda müstəqilliyin aşağıdakı növlərinə rast gəlinir: müstəqillik, idrak müstəqilliyi, praktik, təşkilati-texniki müstəqillik, tətbiqi və tədris müstəqilliyi, əqli müstəqillik, yaradıcılıq müstəqilliyi, ictimai-siyasi müstəqillik, əmək müstəqilliyi, siyasi müstəqillik, dövlət müstəqilliyi; mülkiyyət müstəqilliyi, təsərrüfat müstəqilliyi, istehsalat müstəqilliyi, iqtisadi müstəqillik.

Biz həmin siyahıya müstəqilliyin aşağıdakı növlərini də əlavə edə bilərik: mənəvi müstəqillik, öz fikrini bildirməkdə müstəqillik, fəaliyyət müstəqilliyi, yaradıcılıq müstəqilliyi, təlim əməyi müstəqilliyi və s.

Ona görə də təlim prosesində, istərsə də sinifdənxaric tədbirlərdə, istərsə də təlim və sinifdənxaric tədbirlərin qarşılıqlı əlaqəsi zamanı şagirdlərlə aparılan təhsilləndirici, tərbiyələndirici və inkişafetdirici xarakterli işlərdə müstəqilliyin növləri diqqət mərkəzində dayanırdı.

Azərbaycan Respublikasında tədqiqatlarda L.İ. Mansurova (1) tarix dərslərində; L.A. Məmmədli (2) ali məktəblərində mühazirə və seminar məşğələlərində idrak fəallığı məsələlərinə diqqət yetirmişlər.

G.İ. Nazarova – yazılı nitqin təlimi prosesində (3) idrak fəallığı; D.V. Matyukova - təlimin fərdiləşdirilməsi şəraitində şagirdlərdə (4); A.A. Şamsiyeva - ixtisası dil olmayan ali məktəblərdə xarici dilin təlimi prosesində tələbələr-

də (5); A. Benqi - Türkiyə orta məktəblərində təsviri incəsənət üzrə məşğələlərində şagirdlərin (6); F.A. İxsanova – riyaziyyatın təlimində texniki ali məktəb tələbələrində (7); E.İ. Tsopanova (8) və N.V. Zinçenko (9) - yaradıcı müs-təqilliyin; N.V. Pıpa ümumiyyətlə müstəqilliyin inkişaf etdirilməsi (10); A.V. Nevzorova (11) və T.N. Lipçanskaya (12) - təlim fəaliyyətində müstəqilliyin inkişaf etdirilməsi; N.Y. Tayçinova – təlim-tətbiqi əmək fəaliyyətində kiçik yaşlı məktəblilərdə müstəqillik vərdişlərinin formalaşdırılması (13); L.R. Sapaçeva – kiçik yaşlı məktəblilərin təlim müstəqilliyinin (14); A.N. Qulyayeva - kiçik yaşlı məktəblilərin təlim müstəqilliyinin pedaqoji müstəqilliyi (15); N. Kuxarev - əqli müstəqilliyin formalaşdırılması (16);

Tədqiqat apardığımız ümumtəhsil məktəblərində təlim prosesində, ayrı-ayrı fənlərin tədrisi prosesində V-IX siniflərdə müstəqilliyin inkişaf etdirilməsi xüsusi diqqət mərkəzində dayanırdı.

Eksperimentə cəlb olunmuş siniflərdə təlim prosesində və sinifdənxaric tədbirlər zamanı biz müstəqilliyin daha çox praktik-təşkilati müstəqilliyi, tətbiqi və tədris müstəqilliyi, idrak müstəqilliyi, təlim əməyi müstəqilliyi, əqli müstəqillik, mənəvi müstəqillik, öz fikrini bildirməkdə müstəqillik, fəaliyyət müstəqilliyi, yaradıcılıq müstəqilliyi, öz şəxsi şərəf və ləyaqətinin qorunub müdafiə edilməsi üzrə müstəqilliyi; ağıllı fəaliyyət göstərmək üzrə şəxsi müstəqillik; tənqid və özünütənqid və öz mövqeyini müdafiə etmək üzrə müstəqillik; qərara gəlmək (qəbul etmək) müstəqilliyi kimi növlərinə müraciət edirdilər.

Biz, əsasən V-IX siniflərin ədəbiyyat və Azərbaycan tarixi fənlərinin imkanlarından faydalanırdıq.

Ümumtəhsil məktəblərində ədəbiyyatın tədrisinə V siniflərdən başlanır. Məlum olmaqla yanaşa, ədəbiyyat iki yerə bölünür: şifahi (folklor) və yazılı ədəbiyyat. Folklor dedikdə. xalq yaradıcılığı ədəbiyyatı nəzərdə tutulur. Folklorda xalqımızın adət və ənənələri, dünya və insan barədə təsəvvürlər anlaşılır. V sinfin ədəbiyyat dərsliyində qeyd edildiyi kimi, "Bədii ədəbiyyatda keçmişdə və indi baş verənlər, gələcəkdə ola biləcək hadisələr, insanın mənəvi dünyası, təbiət, heyvanlar aləmi, qeyri-adi, fantastik sərgüzəştlər və s. əks olunur. Ədəbiyyatın başlıca mövzusu insan, onun həyatı, düşüncələri ilə bağlı olur" (, 10).

V sinfin ədəbiyyat dərsliyində "Ana maral" (əfsanə) adlı mövzu var. Əfsanənin mövzusu belədir: Ovçu Nurəli həmişəkindən fərqli olaraq, ovdan son dərəcə əhvalı pərişan gəlir. sən demə, o, bəbirin ana maralı necə qovduğunun şahidi olur. Onun atdığı güllə bəbirin marala toxunmadan uzaqlaşmasına səbəb olur. Bu dəfə ovçu Nurəli maralı təqib edir. maral öz canını qurtarmağa çalışır. Qaçdı-qovdu əməliyyatı bir xeyli çəkir. Maral bir qayanın başına çatanda dayanıb qorxu və yorğunluqdan titrəyir. Ovçu Nurəli güllə ilə onu vurmaq istəyir. Birdən maralın daşlara fışqıran isti südü onun gözlərini qapayır. Ovçu Nurəli əl saxlayır. Bu ara pusquda dayanmış bəbir qəfil sıçrayıb maralı ələ keçirir. Ovçu Nurəlinin gülləsi bəbiri öldürür. Maral xilas olur, lakin qorxu onu tərk etməyib. Ovçu Nurəli onun balalarının yanına kimi ötürür və söz verir ki, bir də əlinə tüfəng alıb meşəyə getməyəcəkdi. Vaxt gəlir Ovçu Nurəli ağır xəstələnir. həlim ona maral qatığı içməyi tapşırır. Evdəkilər çox axtarsalar da, maral qatığı tapa bilmirlər. Bir gün xəstəyə əyan olur ki, bəbirdən xilas etdiyi maral onunçun qatıq gətirib, bunu arvad-uşağa deyir. Elə bilirlər kişi sayıqlayır. Çölə çıxanda görürlər ki, doğrudan da maral qapıda dayanıb. Ovçu Nurəlinin arvadı Fatimə sərnic dolu maral südü götürür. Amma ucadan səslənir: "Həkim maral südü yox, maral qatığı demişdi".

Bunu eşidən maral hər gözündən bir damla göz yaşını isti südün içərisinə salır. Ovçu Nurəli maral qatığından yeyib sağalır.

Müəllim şagirdlərin idrak müstəqilliyi, təlim əməyi müstəqilliyinə və yaradıcı müstəqilliyinə şərait yaratmaqla mövzunun mənimsənilməsi, təhsilləndirici, tərbiyələndirici və inkişafetdirici vəzifələrinin yerinə yetirilməsinə nail olur.

Şagirdlərin idrak müstəqilliyi və təlim əməyi müstəqilliyi müəllimin onlara verdiyi aşağıdakı suallar və tapşırıqları əsasında inkişaf etdirilir:

1. Ovçu Nurəli ovdan nə üçün qanı qara gəlmişdi?

2. Meşədəki maralı Ovçu Nurəlidən başqa hansı heyvan pusurdu?

3. Maral bəbirin iti caynaqlarından necə xilas oldu?

4. Ovçu Nurəli nə üçün güllə ilə vurmadı?

5. Maral özündən daha çox kimlərin taleyi üçün narahat idi?

6. Ovçu Nurəli maralı güllə ilə vurmayıb onu balalarının yanına çatana qədər ötürdü. Bəs nə üçün evə qanıqara gəlmişdi?

7. Ovçu Nurəli birdən-birə nə üçün xəstələndi?

8. Həkim ovçu Nurəliyə dərman olaraq nəyi məsləhət gördü?

9. Həkimin məsləhət bildiyi dərman necə tapıldı?

10. Bir şəxsiyyət kimi ovçu Nurəli necə bir insandır?

11. Siz ovçu Nurəlinin yerində olsaydınız meşədə necə hərəkət edərdiniz?

12. Maral ovçu Nurəlinin xeyirxahlığını necə qiymətləndirdi?

Şagirdlər həmin sualları cavablandırmağa çalışmış, müstəqillik nümayiş etdirməyə, yaradıcı müstəqillikləri ilə seçilməyə çalışmışlar.

Cavablara müraciət edək:

Şagird Gülər: Meşədəki maralın necə həyəcan keçirməsi, qorxudan titrəməsi, bir tərəfdən bəbirin onu parçalayacağı, digər tərəfdən Ovçu Nurəlinin gülləsinə tuş gələcəyi fikrindən necə qorxması Ovçu Nurəliyə pis təsir etmişdi.

Şagird Rasim: Bu hadisələrdən təsirlənən Ovçu Nurəli bu qərara gəldi ki, bir daha əlinə tüfəng alıb meşəyə getməyəcək.

Şagird Zaur: Ovçu Nurəli başa düşdü ki, meşəyə onun gözəlliklərindən faydalanmaq, saf, təmiz havasından ciyər dolusu nəfəs almaq, meyvəsindən dadmaq, yığıb evə gətirmək üçün gedərlər.

Şagird Xatirə: İnsan meşənin florası və faunasına qayğı ilə yanaşmalı, onlara qulluq etməlidir. Təbii sərvətlərimizdən milli iftixar hissi keçirməlidir. Bu gözəl sərvətlərə, nadir incilərə qənim kəsilmək olmaz.

Şagird Aytən: İnsanlar kimi bütün canlıların da yaşamaq hüququ var.

Dərsdə V sinif şagirdlərinin digər suallara cavabları da maraqlı və tam olmuş, onların müstəqil və yaradıcı düşündüklərini göstərmişdir.

VII sinifdə Mir Cəlalın "Bir gəncin manifesti" romanından alınmış "Bahar" mətni ilə tanışlıq nəzərdə tutulur. Bu hekayətin məzmunu belədir ki, Bahar adlı yeniyetmə gün-güzəran dalınca yaşadığı kənddən çıxıb rayon mərkəzinə - bir vağzala gəlib çatır. Tüfəngli adamlardan biri yiyəsiz və köməksiz bu uşağı görüb ona yazığı gəlir. Bahara deyir ki, onu öz atasının yanında – qəssab dükanında bir işə düzəldər: "Paltarın, çörəyin bizdən, özün də erkək ətinin pitisindən yeyib cana gələrsən".

İşsiz-gücsüz, ac-yalavac Bahar tez razılaşır. Tüfəngli adam onu bir arabaya oturdub qəssab Məşədi Abbasın yanına gətirir. Məşədi Abbas axşama qalan və köhnələn içalatı" səbətə doldurub" ona verər, "satmamış qayıtma" deyərdi. Bunun müqabilində Bahara bir abbası fındıq pulu, yatmaq üçün tövlədə yer verilərdi. İçalat satılmayanda da döyülüb, söyülərdi. Bir dəfə qara it onun satmaq istədiyi mal qarnını onun əlindən alıb qaçır. Qarlı-şaxtalı bir qış idi. Belə dözülməz havada Məşədi Abbas onu həndəvərə buraxmır, qovur. Satılmalı olan mal qarnının pulunu - bir manatı tələb edir. Bahar həmin şaxtalı qış gecəsində, əyni yalın halda kimə pənah aparırsa üzünə qapı çırpılır, bu binəvaya yazığı gəlib sığınacaq verən olmur. Beləliklə, donub ölür. Dərslikdə oxuyuruq: "Konka yolunun qarını kürüyənlər bir uşaq meyiti tapdılar. Donmuş, taxtaya dönmüşdü Buzlaşmış saçları üzünə yapışmışdı. Bütün sifəti buz qatı ilə örtülmüşdü. Qolları qoltuqlarına bükülüb qalmışdı. Baxanların ürəyi xarab olurdu. Yiyəsiz bir uşaq olduğu ilin bu vaxtında əynindəki qədək paltarından bəlli idi. ona görə yiyəsini axtarmadılar, qəriblər qəbiristanına apardılar" (18, 135).

Şagirdlər Baharın taleyindən mütəəssir olaraq o zamankı və müasir uşaqları yadlarına saldılar. Ölkəmizdə uşaqlar üçün yaradılmış gözəl şəraitindən danışdılar. Bildirdilər ki, Bahar o dövr cəmiyyətinin yaratdığı yaramaq şərait nəticəsində olmazın zülmlər çəkib, bir qarın çörəyə möhtac olub, təhqir və məhrumiyyətlərə, dözülməz istismara, zülmə məruz qalıb. Şaxtalı, qarlı gecədə daldalanmağa yer tapmayıb.

Dərsdə Məşədi Abbasın, onun oğlunun, Kəblə Qurbanım, sahibkarın xanımının qəddarlığı, amansızlığı, tamahkarlığı kəskin tənqid edilir.

Şagird Zülfiyyə: Məşədi Abbasın, Kəblə Qurbanım Kişi qəddarlığı və amansızlığı hədsizdir. Qadın, hər şeydən əvvəl anadır. Onlarda mərhəmət hissi kişilərə nisbətən çox olmalıdır. Fəqət sahibkarın xanımı da Bahara münasibətdə xeyirxah mövqedə olmur, ona yazığı gəlmir, onun yalvarışlarına baxmır. Öldürücü şaxtada "Xanım mitili – Baharın köhnə yorğanını eşiyə atdı: "İtil, hansı cəhənnəmə gedirsən, get!" dedi. Bütün bunlar bir manat pulun ucbatından baş

verir. Bir manatın dərdini çəkənlər Baharın ölümünə qətiyyən təəssüflənmirlər. Bu, onlar tərəfindən mənəviyyatsızlıq, simasızlıq, insanlıqdan kənar hərəkətlərdir. Yolverilməz düşüncə, davranış və rəftar tərzidir.

**Problemin aktuallığı.** Təlim prosesində yeniyetmələrdə müstəqilliyin inkişaf etdirilməsi kurikulumların tətbiqi və yeni pedaqoji təfəkkür şəraitində öz aktuallığı ilə seçilir.

**Problemin yeniliyi.** Təlim prosesində yeniyetmələrdə müstəqilliyin inkişaf etdirilməsi diqqətə çatdırılır.

**Problemin praktik əhəmiyyəti.** Təlim prosesində yeniyetmələrdə müstəqilliyin inkişaf etdirilməsi sahəsində ümumtəhsil məktəbinin ədəbiyyat müəllimlərinə öz köməyini göstərəcəkdir.

## ƏDƏBİYYAT


1. L.İ. Mansurova. Tarix dərslərində şagirdlərdə idrak fəallığının formalaşdırılması: Ped.ü.fəls.dok. ...dis. Bakı, 2013.
2. L.A. Məmmədli. Tələbələrin idrak fəallığının inkişaf etdirilməsi yolları: Ped.ü.fəls.dok. ...dis. Bakı, 2014.
3. Назарова ГИ. Развитие познавательной самостоятельности школьников в процессе обучения письменной речи: Дис. ...канд.пед.наук. Казань, 2001.
4. Матюхова Д.В.Формирование творческой самостоятельности учащихся в условиях индивидуализации обучения: Дис. ...канд.пед.наук. Кострома, 2008.
5. Шамсиева А.А. Формирование творческой самостоятельности студентов в процессе обучения иностранному языку в неязыковых вузах: Дис. ...канд.пед.наук. Казан, 2005.
6. Бенги Айхан развитие творческой самостоятельности учащихся средней школы Турции на занятиях по изобразительному искусству: Дис. ...канд.пед.наук. Омск, 2007.
7. Ихсанова Ф.А. Методика формирования творческой самостоятельности студентов технических вузов в обучении математике с использованием системы: Дис. ...канд.пед.наук. Елабуга, 2015.
8. Цопанова Е.И. Формирование творческой самостоятельности студентов как основы их профессионального становления: На примере подготовки товароведов-экспертов в системе университета: Дис. ...канд.пед.наук. Владикавказ, 2004.
9. Зинченко Н.В. Развитие творческой самостоятельности студентов на пленэрной практике: Дис. ...канд.пед.наук. М., 2008.
10. Пыпа Н.В. Развитие самостоятельности учащихся http://открытыйурок.рф/статьи/572779/
11. Невзорова Анна Витальевна Воспитание самостоятельности школьников в учебной деятельности: Дис. ...канд.пед.наук. Архангельский, , 2005.
12. Липчанская Т.Н. Формирование самостоятельности учащихся в процессе обучения. https://nsportal.ru/npo-spo/obrazovanie-i-pedagogika/library/2013/10/10/formirovanie-samostoyatelnosti-uchashchikhsya-v
13. Тайчинова Н.Я. Формирование навыков самостоятельности младших школьников в учебно-прикладной трудовой деятельности: Дис. ...канд.пед.наук. М., 2000.
14. Сапачева Л.Р. Формирование у младших школьников учебной самостоятельности: Дис. ...канд.пед.наук. М., 2010.
15. Гуляева А.Н. Педагогическое обеспечение учебной самостоятельности младших школьников: Дис. ...канд.пед.наук. Якутск, 2006.
16. Кухарев Н. Формирование умственной самостоятельности: Дис. ...канд.пед.наук. М., 1972.
17. S. Əliyev, B. Həsənov, Ə. Səfərova, Ə. Quliyev. Ədəbiyyat: Ümumtəhsil məktəblərinin 5-ci sinfi üçün "Ədəbiyyat" fənni üzrə dərslik. Bakı: Bakınəşr, 2016, 208 s.
18. S. Əliyev, B. Həsənov, Ə. Səfərova, Ə. Quliyev. Ədəbiyyat: Ümumtəhsil məktəblərinin 7-ci sinfi üçün "Ədəbiyyat" fənni üzrə dərslik. Bakı: Bakınəşr, 2016, 208 s.

**У.М. Исмаилова**

## РАЗВИТИЕ САМОСТОЯТЕЛЬНОСТИ ПОДРОСТКОВ В ПРОЦЕССЕ ОБУЧЕНИЯ

***РЕЗЮМЕ***

В статье исследуются вопросы развития самостоятельности подростков в процессе обучения. Данные задачи изучают на уроках литературы в V-VII классах. На уроках подробно рассматривается легенда «Мать-олениха» и рассказ «Бахар» из романа Мир Джалала «Манифест молодого человека». Преподавание данных произведений способствует развитию у учащихся творческой самостоятельности, познавательной самостоятельности и учебно-трудовой самостоятельности.

**U.M. Ismailova**

## DEVELOPMENT OF THE INDEPENDENCE OF TEENAGERS IN THE TRAINING PROCESS

***SUMMARY***

The article studies the development of teenagers' independence in the learning process. These problems are studied in literature classes in V-VII grades. The lessons detail the legend "Mother-deer" and the story "Bahar" from the novel Mir Jalal "Manifesto of a Young Man". Teaching these works promotes the development of students' creative independence, cognitive independence and educational and labor autonomy.

**Redaksiyaya daxil olub**: 09.02.2018